Rayon gigiyena və epidemologiya mərkəzi bu ilin əvvəlindən yoluxucu xəstəliklərin qarşısının alınması, sanitar-profilaktiki tədbirlərin həyata keçirilməsi istiqamətində kömpleks işlər görmüşdür. Hər il olduğu kimi bu ilin əvvəlindən tərtib edilən tədbirlər planı əsasında ayrı-ayrı sahələr--yoluxucu və parazit xəstəliklərə qarşı həyata keçirilən tədbirlər öz müsbət nəticəsini vermişdir. Belə ki, vəba və başqa xüsusi təhlükəli yoluxucu xəstəliklərin rayon ərazisinə gətirilməsi və yayılmasının qarşısının tərəfimizdən alınmasına ciddi diqqət yetirilmişdir. Bu xəstəliklərin ən təhlükəliləri həm insan, həm də heyvanlar üçün quduzluq, qarayara, qrip, vərəm və başqa kəskin respirator xəstəlikləri sayılır. Odur ki, cari ilin ötən dövrü ərzində profilaktik peyvəndlərdən maksimum dərəcədə istifadə etmişik. Məsələn, 2015-ci il ərzində profilaktik peyvəndlərdən hepatit «B»yə qarşı 1039 nəfərə, göy öskürük, difteriya və tetanusa qarşı 1173 nəfərə, qızılça, parotiz məxmrəyə qarşı 2356 nəfərə, polimelitə qarşı 4912 nəfərə, altı yaşlı uşaqlar arasında difteriya və tetanus xəstəliklərinin əleyhinə 1037 nəfərə, pnevmaniya əleyhinə 3282 nəfərə, doğumun 4-7-ci gündə 1027 nəfərə BSJ peyvəndi edilmişdir.

Tərəfimizdən profilaktiki peyvəndlərin keyfiyyətli aparılması məqsədilə hər ayın 14-15-i günlərində vahid peyvəndləşmə günü keçirilir. Həmin günlərdə peyvəndləmə materialları soyuq zəncir prinsipi əsasında müalicə-profilaktika müəssisələrinə çatdırılır.

Cari ilin doqquz ayı ərzində yoluxucu xəstəliklərə şübhəli olan 487 nəfər haqqında mərkəzə bildiriş daxil olmuşdur. Həmin bildirişlərə əsasən xəstəlik ocaqlarında sanitar-epidemioloji müayinələr aparılmış və profilaktik tədbirlər həyata keçirilmişdir. Müəyyən olunmuşdur ki, onlardan bir neçə nəfəri ilkin vərəm, brüsselyoz və bağırsaq infeksiyası xəstəliyinə tutulmuşdur.

Tərəfimizdən həmin xəstəliklər müşahidə olunan ocaqlar sanitar gigiyenik və əks epidemik tədbirlər aparılmışdır.

# Sanitar-epidemioloji tədbirlərə diqqət artırılır

Eyni zamanda rayon üzrə doğulan bütün uşaqların vərəm əleyhinə BSJ peyvəndlərinə cəlb edilməsi üçün 1620 doza peyvənd materialı alınıb müalicə-profilaktika müəssisələrinə verilmşdir.Yeni doğulanlardan 25 uşağa əks göstəriş olduğuna görə doğum evində onlar BSJ-yə cəlb edilməmişdir. Onların BSJ-yə cəlb edilməsi nəzarətdə saxlanılır.

Ümumiyyətlə, aparılmış profilaktik tədbirlərin müsbət nəticəsidir ki, son 10 il ərzində rayonda uşaqlar arasında göy öskürək, qızılca, tetanus, məxmərək, difteriya, parazit kimi yoluxucu xəstəliklər qeydə alınmamışdır.

2015-ci il ərzində rayonun yaşayış məntəqələri üzrə parazitar xəstəliklərə qarşı profilaktik tədbirlər aparmaq məqsədilə 1954 nəfərdən qalın qan yaxması götürülərək parazitoloji laboratoriyada müayinə edilmiş, malyariya xəstəliyi aşkar edilməmişdir.

Malyariya xəstəliyinin profilaktikası məqsədilə iyul və avqust aylarında rayonun malyarogen əraziləri sayılan Kürd, Qaradeyn, Bayramkoxalı kəndlərində, Nic qəsəbəsində geniş dizenfeksiya tədbirləri aparılmışdır.

Bu il 280 nəfərin it, 12 nəfərin pişik, 8 nəfərin siçan dişləməsi haqqında məlumat alınmışdır. Həmin zərərçəkənlərə rayon mərkəzi xəstəxanasının poliklinika şöbəsində peyvəndləmə işləri aparılmışdır. Bu il GEM tərəfindən rayonun şəhər, qəsəbə və kəndlərində əlaqədar təşkilatların nümayəndələri ilə birlikdə vaxtaşırı reydlər keçirilmişdir. Bu reydlər zamanı şəhərdə, qəsəbə və kəndlərdə təmizlik işlərinin aparılması, su arxlarının təmiz saxlanılması üçün təklif və tapşırıqlar verilmiş, xidmət müəssisələri ilə vətəndaşlar arasında məişət tullantılarının daşınması haqqında müqavilələrin bağlanmasına köməklik götərilmişdir.

Küçə ticarətinin qarşısının alınması üçün keçirilən reydlər zamanı sanitar qaydalarını pozan fiziki şəxslər haqqında inzibati tədbirlər görülmüşdür. Bundan əlavə rayonun Vəndam, Bum qəsəbələrində, Soltannuxa, Mıxlıqovaq, Bayramkoxalı kəndlərində də inzibati ərazi nümayəndələri və bələdiyyə qurumları ilə birlikdə reyd keçirilmiş, xidmət və ticarət obyektlərində təmir işlərinin aparılması, ərazinin sanitar-abadlıq vəziyyətinin yaxşılaşdırılması, tullantıların daşınması və zərərsizləşdirilməsi ilə əlaqədar tədbirlər görülmüşdür.

Qida sənaye müəssisələrində--Qəbələ konserv, süd, çörək zavodlarında, habelə yeyinti məhsulları istehsalı müəssisələrində istehsal olunan məhsulların sertifikatlaşdırılması üçün sənədlər hazırlanmış, istehsal olunan məhsuldan götürülən nümunələrlə birlikdə Gigiyenik sertifikat alınması üçün respublika GEM-ə göndərilmiş və qeyd olunan həmin emal muəssisələrdə istehsal olunan bütün çeşiddə olan məhsulların keyfiyyəti haqqında gigyenik sertifikat alınmışdır.

Cari ildə sanitar qaydalarını pozduğuna görə ictimai iaşə, ticarət və digər xidmət müəssisələrində işləyən 16 nəfər fiziki şəxs cərimə olunmuş, sanitar tələblərə cavab verməyən 7 obyektin fəaliyyəti müvəqqəti olaraq dayandırılmışdır.

**Bəxtiyar MƏMMƏDOV,**
**rayon gigiyena və epidemiologiya mərkəzinin direktoru.**

# Məktəbdə tədbir

Murad Əlibəyov adına Xırxatala kənd tam orta məktəbində Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü münasibətilə geniş tədbir keçirilmişdir. Tədbiri giriş sözü ilə məktəbin uşaq birliyi təşkilatı rəhbəri Mənzər Qəribova açmışdır.

O, Azərbaycanın dövlət bayrağı, onun yaranma tarixi haqqında iştirakçılar qarşısında geniş məruzə etdi.

Məktəbin müəllimi Əsabəli Məmmədov çıxış edərək Dövlət Bayrağının yenidən bərpasında ümummilli lider Heydər Əliyevin misilsiz xidmətlərindən, habelə möhtəşəm Dövlət Bayrağı Meydanının yaradılmasında ölkə Prezidenti İlham Əliyev cənablarının təşəbbüsündən, qələbəmizin və müstəqilliyimizin əbədi və dönməz olmasından danışmışdır.

Şagirdlərdən Əhliman Aslanlı, Ümid Məmmədzadə, Qədir Şahbazov, Aynur Asifqızı, Saray Gözəlli və başqaları Dövlət bayrağımız, vətənimiz haqqında şeirlər söylədilər.

**"Qəbələ".**

# Bağlarda məhsul yığımı başa çatmışdır

Bağçılıq Qəbələ rayonunun iqtisadiyyatında əsas yerlərdən birini tutmaqla, kənd əhalisinin əsas məşğuliyyət sahəsi hesab olunur. Bu il bol məhsul yetişdirilən meyvə bağlarında qoz, fındıq və şabalıd yığımı başa çatmışdır. Mövcud 3210 hektar fındıq bağından 6300 ton məhsul əldə edilmişdir ki, bu da ötən illə müqayisədə 150 ton çoxdur.

İstehsalçılar məhsulu yerli bazarlara çıxarmaqla yanaşı, sərfəli qiymətə fındıq qəbulu məntəqələrinə də satırlar. Rayonda fındıq emalı zavodu və kiçik fındıq emalı müəssisələri fəaliyyət göstərdiyindən kəndlilər ildən-ilə fındıq bağlarını genişləndirir, məhsuldarlığı artırmaq üçün səylə çalışırlar. Cari ildə 45 hektar sahədə yeni fındıq bağları salınmışdır. Bu ötən ildəkindən 17 hektar çoxdur. Həmçinin fermerlər cari ildə 386 hektar şabalıd bağından 410 ton, 156 hektar qoz bağından isə 370 ton məhsul əldə etmişlər. Meyvə istehsalçıları tərəfindən rayonda bu il 20 hektar sahədə şabalıd, 32 hektar sahədə isə yeni qoz bağları salınmışdır.

# «Sağlam ətraf mühit və sağlam həyat tərzi» mövzusunda tədbir

Oktyabr ayının 28-də "Azərbaycan gəncliyi 2011—2015-ci illərdə" Dövlət proqramına uyğun olaraq şəhər 5 saylı tam orta məktəbdə uşaqların maarifləndirilməsi məqsədilə " Sağlam həyat tərzi və sağlam ətraf mühit" və "Uşaq hüquqları" mövzularında tədbir keçirilmişdir.

Mövzi ilə bağlı Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzinin direktoru Rəna Mahmudova "Sağlam Həyat tərzi və sağlam ətraf mühit"in uşaqların həyatına, yaşam tərzinə təsirindən danışmış, mərkəzin psixoloqu Hökumə İsmayılova "Uşaq hüquqları" mövzusunda geniş məlumat vermiş, uşaqların hüquq və vəzifələrini izah etmişdir.

Rəna Mahmudova "Azərbaycan gəncliyi 2011—2015-ci illərdə" Dövlət Proqramının həyata keçirilməsi ilə bağlı qarşıya qoyulan məsələlərdən və bu sahədə uşaq və ailələrə dəstək mərkəzinin gördüyü işlərdən, keçirilən tədbirlərdən danışmış, bu günün aktual problemi olan sağlam həyat tərzinin uşaqlar üçün nə qədər önəmli olduğunu vurğulamışdır.

Tədbirin sonunda məktəbin təşkilati işlər üzrə direktor müavini Sevinc Əzizova çıxış edərək, məktəbdə bu sahədə aparılan işlərdən söhbət açmış, keçirilən tədbirin uşaqlar üçün əhəmiyyətini qeyd etmişdir.

**H. İSMAYILOVA,**
**Qəbələ UADM-in psixoloqu.**

# Həvəskar futbol komandaları arasında futbol üzrə rayon birinciliyi

Oktyabr-noyabr ayları ərzində Həvəskar futbol komandaları arasında futbol üzrə kişilər arasında rayon birinciliyi keçirmişdir. Kişilər arasında keçirilən kubok yarışına rayonun qəsəbə və kəndlərindən 18 komanda qatılmışdır. Yarışlar dairəvi sistem üzrə keçirilmişdir.

3 noyabr 2015-ci il tarixdə Hacıalılı kənd stadionunda yüzlərlə futbol azarkeşinin izlədiyi yarışların final mərhələsində Qəbələ şəhər və Topbağ kənd komandaları qarşılaşmışlar.

Maraqlı və gərgin idman mübarizəsi şəraitində keçən final oyununda Topbağ kənd komandası 1-0 hesabı ilə Qəbələ şəhər komandasına qalib gələrək I yeri tutmuşdur.

Tədbirin mükafatlanma mərasimində qalib komandalara kubok və diplomlar təqdim edilmişdir.

**Elçin OSMANOV,**
**Qəbələ Rayon Gənclər və İdman İdarəsinin aparıcı məsləhətçisi.**